Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 31-32 (7552-7553) ✲ 1933-cü ildən nəşr olunur ✲ Şənbə, 29 iyun 2019-cu il. ✲ news@qebele-ih.gov.az

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

**26 iyun**

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyində yenidənqurma və əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olub. Zakir Həsənov burada aparılmış yenidənqurma və əsaslı təmir işləri barədə məlumat verib.*

**25 iyun**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ramil Usubovu Təhlükəsizlik Şurasının katibi vəzifəsinə təyin olunması münasibətilə qəbul edib. Dövlətimizin başçısı Ramil Usubovun uzun illər Daxili İşlər naziri vəzifəsini uğurla icra etdiyini bildirib. Bu gün Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunduğunu vurğulayan Prezident İlham Əliyev ölkə qarşısında duran vəzifələrin lazımi səviyyədə icrası üçün təhlükəsizlik tədbirlərinin daim gündəlikdə olmasının önəmini qeyd edib. Prezident İlham Əliyev Ramil Usubovun Təhlükəsizlik Şurasının katibi kimi məsul vəzifənin öhdəsindən layiqincə gələcəyinə əminliyini ifadə edib və ona fəaliyyətində uğurlar arzulayıb.*

**21 iyun**

*Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə telefonla zəng edib. Dövlət başçıları Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq bildirib. Tərəflər əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə ediblər.*

**İlham ƏLİYEV:** *Biz dərin milli-mənəvi təməl üzərində müasir dövlət qurmuşuq. İslam dini milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir.*

# Milli-mənəvi dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsi dövlətimizin diqqət mərkəzindədir



Hər bir xalqın varlığının əsasını onun milli-mənəvi dəyərlərə bağlılığı təşkil edir. Xalqımız məhz bu dəyərlərə söykənərək tarixin çətin sınaqlarından çıxmış, varlığını qoruyub saxlamışdır. Bu gün müstəqil Azərbaycanda milli-mənəvi dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsində liderlərin böyük rolu vardır. Bu danılmaz faktı ulu önndər Heydər Əliyevin simasında da bariz şəkildə görmək mümkündür.

Məlumdur ki, keçmiş SSRİ dövlətinin ideoloji konsepsiyasına görə bu imperiyanın tərkibinə daxil olmuş xalqlar vahid sovet xalqı kimi formalaşmalı idilər.

Bu zaman xalqların ənənəvi milli-mənəvi dəyərləri də tədricən vahid sovet ideologiyası zəminində əriyib getməli idi.

Ötən əsrin 60-cı illərinin sonunda Azərbaycanda hakimiyyətə gələn ulu öndər Heydər Əliyev milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq üçün bütün mümkün olan vasitələrdən məharətlə istifadə etmişdir. Milli-mənəvi dəyərlərimizin başlanğıcı olan ana dilimizin qorunub saxlanması və inkişaf etdirilməsi sahəsində ulu öndərin xidmətləri misilsizdir.

Azərbaycan mədəniyyətinin, incəsənətinin adət-ənənələrinin yaşadılması, ana dilimizin qorunması və inkişafı milli ədəbiyyatın, incəsənətin, elmin inkişafında böyük rolu olmuş şəxsiyyətlərimizin təbliği soykökə qayıdış, xalqımızın yüksək mədəniyyətə, elmə malik bir xalq kimi dünyada tanıdılmasına hədəflənmişdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ulu öndər milli-mənəvi dəyərlərin inkişaf etdirilməsi və gələcək nəsillərə ötürülməsi missiyasını yenə də öz üzərinə götürmüş və uğurla həyata keçirmişdir.

Ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərə, onun inkişafına göstərdiyi münasibət müasir tarixi mərhələdə də dövlət siyasətinin aparıcı istiqamətini təşkil edir. Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına, onların bütün dünyada təbliğinə prioritet məsələ kimi yanaşır.

Milli mənəvi dəyərlərimizin qorunması, təqdiqi və gələcək nəsillərə çatdırılmasında Heydər Əliyev Fondu da tarixi xidmətlər göstərir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu çoxsaylı fəaliyyəti ilə milli-mənəvi dəyərlərimizin yorulmaz təbliğatcısına və etibarlı müdafiəçisinə çevrilmişdir.

Fondun həyata keçirdiyi çoxsaylı layihələrdən biri olan "Tolerantlığın ünvanı-Azərbaycan" layihəsi çərçivəsində istər ölkə daxilində, istərsə də ölkə xaricində bir çox dini, tarixi abidələrin bərpası Mehriban xanımın keçmişimizə, bugünümüzə və gələcəyimizə dəyərli töhfələridir.

Bu gün ölkəmizdə milli-mənəvi dəyərlərin təbliği istiqamətində sistemli iş aparılır. Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu fəaliyyət göstərir və bu qurum müxtəlif layihələr həyata keçirir.

Milli-mənəvi dəyərlərin əsas istiqaməti olan dini etiqat azadlığının inkişafın da ölkəmizdə xüsusi önəm verilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dini etiqat azadlığının, multmədəni harmoniyanın bərqarar olması üçün bu sahəyə xüsusi diqqət yetirir. Ölkə prezidenti millik-mənəvi dəyərlərimizin mədəni irsimizin, adət-ənənələrimizin qloballaşmanın mənfi təsirlərindən qorunmasına, onların bütün dünyada təbliğinə prioritet kimi baxır.